Trainings and classes in the department are held according to the schedule, the generally accepted scheme and form of classes, depending on the activities of athletes in training and institution. It is reasonable to give athletes free work and homework in order to improve individual boxing techniques outside of training, improve their physical qualities, and strengthen their bodies.

The responsibility of students' educational work is determined, first of all, by the functional continuity of brain activity, which depends on the rational establishment of the regime of the day, week and year. The study of the place of physical culture and sports in the everyday life of students aroused great interest among specialists.

***Rəyçi; dosent Zaur Hüseynzadə***
***Bədən tərbiyə və idman kafedrasının 17 yanvar 2023-cü il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 18 yanvar 2023-cw il***

**UOT:355.**

# AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNDƏ HƏRBİ HÜQUQUN SOSİAL ROLU

***Hüseynov Fikrət Bəhlul oğlu, Babayeva Nurlana Bəhlul qızı,***
***İbrahimova İlhamə Arif qızı***
***Gəncə Dövlət Universiteti***
***Nurlanababayeva79@gmail.com***

**Xülasə:** *Elmi əsərdə çoxsaylı mənbələrə istinad edərək müəlliflər ölkəmizin silahlı qüvvələrində hərbi hüquq ilə bağlı bəzi mühüm məsələləri araşdırmışlar. Yazılı elmi sənədlərə əsaslanaraq Azərbaycan Respublikası silahlı qüvvələrində sosial mühitin tənzimlənməsi ilə bağlı hərbi hüququn tələbləri öyrənilmişdir. Müasir dünya tələblərinə uyğun şəkildə təşkil edilən və hərbi sahədə bir çox uğurlara imza atmış milli ordumuzda yarana biləcək müxtəlif səciyyəli problemlərin həllində hüququn aliliyi elmi əsaslarla tədqiq edilmişdir.*

**Açar sözlər:** hüquq, cinayət, hərbi- hüquq, nizamnamə, briqada; münasibətlər, təhsil, hərbi rütbələr.

**Ключевые слова:** право, преступление, военное право, устав, бригада, отношения, образование, воинские звания.

**Key words:** law, a crime, military law, Charter, Brigade, Relations, education, military ranks.

Hərbi hüquq-hüquq sisteminin tərkib hissəsi olmaqla özündə həm ənənəvi hüquq sahələrinin normalarını, həm də xüsusi hərbi-hüquqi aktları birləşdirən kompleks formalaşma kimi özünü göstərir.

Azərbaycan Respublikası Silahlı qüvvələrinin quruculuğu sahəsində ictimai münasibətlərin tənzimlənməsi hüququn müxtəlif sahələri vasitəsilə tənzimlənir. Belə ki, hərbi idarəetmə sahəsində münasibətlər inzibati hüquqla, hərbi təşkilatların maliyyə fəaliyyəti sahəsində münasibətləri maliyyə hüququ ilə tənzimlənir, hərbi münasibətlər sistemində hüquq mühafizə funksiyasını cinayət hüququ, cinayət-prossesual hüquq, islah-əmək hüququnun normaları yerinə yetirir. Silahlı Qüvvələrin maddi texniki təminatı sferasında mülki hüququn normaları qüvvədədir, hüququn ənənəsi sahələrinin tərkib hissəsi olmaqla, saydığımız normalarla eyni zamanda hərbi hüquqa daxil edilir.

Bununla yanaşı, hərbi münasibətlərin nizama salınmasında böyük qism hüquqi normalar iştirak edir ki, onları hüququn ənənəvi sahələrinə aid etmək olar.

Burada söhbət məhz hərbi münasibətlərin nizamlanması üçün ümumi hərbi mükələfiyyət (vəzifə) haqqında Qanunun normalarından ümumi Hərbi Nizamnamələrdən və digər hərbi-hüquqi aktlardan gedir.

Silahlı Qüvvələrdə qüvvədə olan hüququn ənənəvi sahələrinin normaları və xüsusi hərbi-hüququn aktların normalarını onların predmet vahidliyi birləşdirir. Onların ümumi tənzimetmə predmeti var. Silahlı Qüvvələrin quruculuğu sahəsində ictimai münasibətlər. Məhz tənzimetmənin ümumi predmeti və ümumi məqsədi – Silahlı Qüvvələrin möhkəmləndirilməsi, onun yüksək döyüş hazırlığını saxlanılması-hüququn kompleks sahəsi kimi hərbi hüququn obyektiv əsasını yaradır.

Hərbi hüquqa Silahlı Qüvvələrin xarakteri və təyinatı, onlara xas olan funksiyalar, onların qarşısında duran vəzifələr, prinsiplər, hərbi idarəetmə orqanlarının və hərbi qulluqçuların fəaliyyətinin metod və məqsədlərə təsir göstərir. Bütün bunlar öz əksini hərbi hüquqda Silahlı Qüvvələrdə ictimai münasibətlərin tənzim edilməsi metodunda tapır və hərbi hüququn bir sıra xüsusiyyətlərini üzə çıxarır. Bunlar aşağıdakılardır:

1. Hərbi hüquq münasibətləri daha dəqiq tənzim edir.

2. Hərbi hüququn normaları hərbi qulluqçulara qarşı yüksək tələbkarlıqla xarakterizə olunur.

3. Hərbi qulluqçular əmri (sərəncamı) yerinə yetirməməsi və pozmaması üçün daha çox məsuliyyət daşıyırlar.

4. Hərbi hüquq üçün elə mənbələr xarakterikdir ki, onlar Silahlı Qüvvələrlə münasibətlərin tənzimlənməsinə yönəldir.

Hərbi hüquq haqqında hərtərəfli məlumat alınması onun mənbələrinin öyrənilməsi ilə bağlıdır. Bu mənbələrin içərisində aparıcı yeri Azərbaycan Respublikası Konstitusiyası tutur. Azərbaycan Respublikası Konstitusiyası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuğu sahəsində münasibətləri tənzim edən normalar birbaşa daxil edilmişdir.

Onlara birinci növbədə Azərbaycan RespublikasıKonstitusiyası 4-cü fəsilinin 74-cü (“Vətənə sədaqət”) və 76-cı (“Vətənimüdafiə”) maddələri daxil edir.

Hərbi hüququn mənbələri içərisində mühüm yeri Azərbaycan Respublikası Silahlı Qüvvələr haqqında Qanun tutur. O, vətəndaşların hərbi qulluğa hazırlığı və hərbi qulluğun keçməsi qaydasını müəyyən edir. Hərbi qulluqçuların digər sahələrdə münasibətlərini tənzimləyir.

Silahlı Qüvvələrdə ictimai münasibətlərin tənzimində Hərbi and, Ümumhərbi Nizamnamələr, Daxili Xidmət Nizamnaməsi, Silahlı Qüvvələr Nümunəvi Nizamnaməsi və s. mühüm yer tutur.

Belə ki, Daxili Xidmət Nizamnaməsi hərbi qulluqçuların ümumi vəzifələri, onların qarşılıqlı münasibətləri, briqada və onun hissələrində daxili qaydaları müəyyən edir, briqada və onun hissələrində vəzifəli şəxslərin vəzifələrini müəyyən edir.

Hərbi hüququn mənbələrinə həmçinin digər normativ aktlar da daxildir: hərbi qulluqçuların maddi məsuliyyəti haqqında zabit rütbələrinin hərbi rütbələri haqqında və s. Hərbi münasibətlərin hüquqi tənzim edilməsində mühüm yeri hərbi idarəetmə orqanlarının normativ aktları tutur: Silahlı Qüvvələrin Sıra Təlimi Nizamnaməsi və s.

Hərbi hüquq-Silahlı Qüvvələrdə quruculuğun forma və prinsiplərinin möhkəmləndirilməsini, onun məişət və fəaliyyət sahəsində münasibətlərini: şəxsi tərkibi xidmət keçmə qaydaları, hərbi qulluqçuların və hərbi münasibətlərin digər iştirakçılarının vəzifələrini və hərbi hüquqlarını müəyyən edən kompleks hüquq normalarıdır.

Hərbi quruculuq pinsipinin möhkəmləndirilməsində hüquqi akt və normalar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuğu sahəsindəsiyasətinin əsasını Vətənimizin müdafiəsi təşkil edir. Onları aşağıdakı qruplara bölürlər:

-siyasi prinsiplər;

-təşkilati prinsiplər (SQ kadrlar);

-təlim və tərbiyə prinsipləri;

Hərbi hüququn sosial rolu özünü onda göstərir ki, onun normaları hərbi quruculuq prinsiplərini möhkəmləndirir, hərbi qulluqçuların fəaliyyətində ümumməcburi davranış qaydalarını komplektləşdirir və inkişaf etdirir.

Hərbi hüquq hərbi münasibətlərin tənzimlənməsində mühüm rol oynayır. Hərbi qulluqçuların həyat və fəaliyyətinin bütün tərəfləri hüquqi normalarla tənzimlənir. Hərbi hüququn mənbələrindən hər biri hərbi hüquq münasibətlərini iştirakçılarının davranışını müəyyən edən hüquq və vəzifələr müəyyən edir.

Hərbi hüquq hərbi qulluqçuların təlimi və tərbiyəsinin hüquqi əsasını təşkil edir, yəni: Hərbi hüquqda hərbi qulluqçuların təlim və tərbiyəsi ilə bağlı vəzifələri (məsələlər, şəxsi heyətin fəaliyyət metodu) və normaları müəyyən edilir.

-hərbi hüqüqda hərbi işin müxtəlif tərəflərin inkişafına aid zəngin təcrübə toplamışdır.

-hərbi hüquqda ciddi yerinə yetirilməli olan hərbi texniki bütöv bir təşkilat cəmlənib.

Hərbi hüquq elmi tövsiyələrin qabaqcıl qanun fəaliyyətinə daxil etməyin ən effektiv vasitələrindən biridir.

Hərbi hüquq hərbi hüquq qaydalarının mühafizə vasitəsidir. Hərbi qulluqçular onların üzərinə qoyulan hüquqi vəzifələri yerinə yetirmədikdə, yaxud hüquqlarının həyata keçirilməsində maneəçilik yaratdıqda dövlət məcburetmə tədbiri nəzərdə tutulub. Məcburetmə tədbiri yalnız hüquq pozan şəxsə tətbiq edilir.

Biz hərbi hüququn tərbiyəvi imkanlarından danışmasaq onda: hərbi hüququn sosial rolunun xarakteristikası olmaz.

Hərbi hüququn məzmunu ilə tanış olmaq hərbi qulluqçulara imkan verir ki, onlara qarşı olan tələbkarlığın qanunauyğunluğuna əmin olsunlar, şərti hüquq qaydalarına hörmətlə yanaşsınlar.

Hüququn tərbiyəedici təsiri həm də ona görə qüvvətlənir ki, bütün hərbi qulluqçulara onların milliyətindən, təhsilindən, vəzifəsindən, hərbi rütbəsindən asılı olmayaraq vahid tələblər irəli sürür, bu da hərbi kollektivin möhkəmlənməsinə, rəislərlə-tabe olanlar arasında qarşılıqlı münasibətlərin yaranmasına kömək edir.

**Nəticə**

Deyilənlərə yekun olaraq, belə bir nəticəyə gəlmək olar ki, hüquq mürəkkəb və çoxşaxəli anlayışdır, cəmiyyətdə azadlığın universal məhdudlaşdırıcısı kimi çıxış edir. Hüququn mənbəyinin isə hüquq normalarının ifadə forması kimi başa düşmək olar. Hərbi hüququn anlayışı və mənbələrindən danışarkən Azərbaycan Respublikasında qəbul olunan hərbi qanunvericilik aktlarından söhbət açırıq. Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra qəbul etdiyi konstitusiyalar (12 noyabr 1995) Silahlı Qüvvələr haqqında qanunu (9 oktyabr 1991-ci il). Hərbi xidmətə çağırışın əsasları haqqında qanununun maddələrindən də istifadə olunur.

***Ədəbiyyat***

1.Voyennoye pravo. Dərslik.
2. F.Səməndərov. Cinayət hüququ.
3.Azərbaycan Respublikasının cinayət məcəlləsi.
4. Azərbaycan Respublikasının Konstitusiyası.
5.Hərbi hüquq. Dərslik.
6. A.Quliyev. Hərbi cinayətin şərhi.
7.Azərbaycan Respublikasının Silahlı Qüvvələr haqqında qanun.
8. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi. Bakı. Hərbi Nəşriyyatı 1996.
9. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi. Bakı. Hərbi Nəşriyyatı 1997.

10. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi. Bakı. Hərbi Nəşriyyatı 1998.

## СОЦИАЛЬНАЯ РОЛЬ ВОЕННОГО ПРАВА В ВООРУЖЕННЫХ СИЛАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Гусейнов Фикрет Бехлул, Бабаева Нурлана Бехлул***
***Ибрагимова Ильхама Ариф кызы***

***Резюме***

В научной работе со ссылкой на многочисленные источники авторы исследовали некоторые важные вопросы, связанные с военным правом в вооруженных силах нашей страны. На основе письменных научных документов изучены требования военного законодательства, связанные с регулированием социальной среды в вооруженных силах Азербайджанской Республики. На научной основе исследовано верховенство закона при решении различных конкретных задач, которые могут возникнуть в нашей национальной армии, организованной в соответствии с требованиями современного мира и добившейся многих успехов на военном поприщ

## SOCIAL ROLE OF MILITARY LAW IN THE ARMED FORCES OF THE REPUBLIC OF AZERBAIJAN

***Fikrat Huseynov Baxlul, Nurlana Babayeva Baxlul***
***Ibrahimova Ilhama Arif***

***Summary***

In scientific work with reference to numerous sources, the authors explored some important issues related to military law in the armed forces of our country. On the basis of written scientific documents, the requirements of military legislation related to the regulation of the social environment in the armed forces of the Republic of Azerbaijan have been studied. The rule of law has been researched on a scientific basis in solving various specific tasks that may arise in our national army, organized in accordance with the requirements of the modern world and having achieved many successes in the military field

***Rəyçi: dosent Hüseynzadə Zaur***
***Fiziki tərbiyə və çağırışa qədərki hazırlıq 22 noyabr 2023-cü il tarixli iclasın 3 saylı protokolu***
***Daxil olduğu tarix 10 yanvar 2023-cü il***

**UOT:372.**

## THE METCHODS OF TEACHING ESL FOR DIFFERENT AGE CATEGORIES

***Adigozalova Nububat Nizami, Mammadova Nigar Elchin,***
***Aliyeva Nasiba Islam***
***Ganja State University***
***nigu23@mail.ru,***
***Adigozelovanububet@gmail.com***

**Abstract:** *The present article studies the various methods in language teaching for different English levels of language learners. The study aims to analyze the different approaches to ELT for different age categories as the basis for teaching pedagogy in terms of the trend in teaching, syllabus utilization, materials, and resources, activities in learning, and competency learning.*

**Key words**: Methods of teaching, language teaching, ESL (English as a Second Language), EFL (English as a Foreign Language), basic methods.